IKSAD PUBLICATIONS - 2020©

# 3. INTERNATIONAL NEW YORK CONFERENCE ON EVOLVING TRENDS IN INTERDISCIPLINARY RESEARCH & PRACTICES

NOVEMBER 13-15, 2020
MANHATTAN, NEW YORK CITY

## PROCEEDINGS BOOK

EDITOR
ASSIST. PROF. MUNTAZIR MEHDI

ISBN - 978-625-7279-52-9

# 3. INTERNATIONAL NEW YORK CONFERENCE ON EVOLVING TRENDS IN INTERDISCIPLINARY RESEARCH & PRACTICES

November 13-15, 2020

Manhattan, New York City

# PROCEEDINGS BOOK

**EDITOR**

**ASSIST. PROF. MUNTAZIR MEHDI**

By

**Institute Of Economic Development and Social Researches Publications®**

(The Licence Number of Publicator: 2014/31220)

TURKEY TR: +90 342 606 06 75

E-posta: kongreiksad@gmail.com

www.iksadkongre.com

All rights of this book belong to İKSAD. It may not be copied or reproduced without permission. Legal and ethical responsibility of the works in the book belongs to the authors.

Iksad Publications - 2020©

Release date: 30.11.2020

ISBN – 978-625-7279-52-9

# ALTAY HACIYEV YARADICILIĞINDA TARİXİ OBRAZLAR (İKONOQRAFİK TƏHLİL KONTEKSTİNDƏ)

**Ağayev Emil Raul oğlu**
ADPU-nəznində Azərbaycan Dövlət pedaqoji kollecinin müəllimi
Azərbaycan turizm və menecment universiteti "İctimai fənlər" kafedrasının müəllimi
Azərbaycan, Bakı

**Xülasə**
Hər bir xalqın inkişafında ziyalıların rolu mühüm olmaqla bərabər, həm də ədəbiyyat, incəsənət və digər sahələrin yüksəlişinə gətirib çıxarır. Bu tarixi obrazları gələcək nəsillərə çatdırmaq üçün rəssamlarımız tərəfindən bir-birindən maraqlı portret janrında işlədiyi əsərləri bu gün də aktualdır. Belə sənətkarlarımızdan biri də xalq rəssamı Altay Hacıyevdir (1931-2019). Rəssamın yaradıcılığının böyük bir hissəsini əhatə edən tarixi obrazlar silsiləsi daha çox "Xalqımızın ulduzları" adı ilə tanınır. İkonoqrafik təhlil metodunun əsas nəzəri və təhlil xüsusiyyətləri Altay Hacıyevin portretləri üçün xarakterikdir. Rəssamın qadın obrazlarına müraciəti xüsusilə qeyd edilməlidir: qəhrəman, zərif, incə xüsusiyyətləri ön plana çəkərək kompozisiya daxilində tamamlayır. "Mehriban Əliyeva", "Mömünə Xatun" , "Sara Xatun", "Məhsəti Gəncəvi" və digər tarixi qadın obrazlarına həsr etdiyi portretlərdə onların xalqımızın inkişafında tutduğu mövqeyi bir daha çatdırır. Altay Hacıyev yaradıcılığında xüsusilə "Natəvan" obrazı yeni ifadə çalarlılığı ilə seçilir, təbiət, sevgi, lirika kimi fikirlərini simvolik olaraq "Xan qızı" üzərində cəmləşdirir. "Natəvan və Aleksandr Düma", "Natəvan və Zakir", "Natəvan Şuşa" və digər tablolarda Qarabağın təbiəti, şəxsiyyətləri süjetli kompozisiyalar kimi təqdim edilir. Rəssamın "Atəbəy Eldəniz" , "Qubalı Fətəli xan", "Fətəli xan Xoyski", "Cavad xan" və digər ikonoqrafik obrazlarımıza həsr edilən əsərlərində ölkənin ictimai, mədəni, siyasi həyatında mühüm yer tutan tarixi şəxsiyyətlərimiz rəng vasitəsilə daha da tamaşaçılarda qürur hissi yaradır. Bu məqalədə xalq rəssamı Altay Hacıyev yaradıcılığında mühüm yer tutan tarixi obrazlar ikonoqrafik təhlil kontekstində araşdırılmışdır. Rəssamın portretləri müasir Azərbaycan təsviri sənətində bu janrın inkişafında mühüm yer tutur.

**Açar sözlər:** Altay Hacıyev, Azərbaycan, tarixi, obraz, ikonoqrafik

HISTORICAL IMAGES IN THE WORKS OF ALTAY HAJIYEV
(IN THE CONTEXT OF ICONOGRAPHIC ANALYSIS)

**Summary**
The role of intelectuals in the development of any nation is not only important, but also leads to the rise of literature, art and other fields. The works of our artists in the genre of interesting portraits to pass these historical images on to future generations are still relevant today. One of such artists is People's Artist Altay Hajiyev (1931-2019). The series of historical images, which covers a large part of the artist's work, is better known as the "Stars of our people." The main theoretical and analytical features of the method of iconographic analysis are characteristic of Altay Hajiyev's portraits. The artist's appeal to women's images should be especially noted: the hero completes the composition, emphasizing the delicate, delicate features. In his portraits dedicated to "Mehriban Aliyeva", "Momina Khatun", "Sara Khatun", "Mahsati Ganjavi" and other historical women, they once again convey their position in the development of our people. In Altay Hajiyev's work, the image of "Natavan" is especially distinguished by a new tone of expression, symbolically concentrating his thoughts on nature, love, lyrics on "Khan gizi". "Natavan and Alexander Duma", "Natavan and Zakir", "Natavan Shusha" and other paintings present the nature and personalities of Karabakh as plot compositions. In the works of the artist "Atabey Eldaniz", "Gubali Fatali khan", "Fatali khan

Khoyski", "Javad khan" and other iconographic images, our historical figures, who play an important role in the social, cultural and political life of the country, create a sense of pride in the audience. This article examines the historical images that play an important role in the work of People's Artist Altay Hajiyev in the context of iconographic analysis. The artist's portraits play an important role in the development of this genre in modern Azerbaijani fine arts.

**Keywords:** Altay Hajiyev, Azerbaijan, history, image, iconography

**Giriş**

Hər bir xalqın inkişafında, onun formalaşmasında ziyalıların rolu danılmazdır. Tarixi şəxsiyyətlərimizi tablolarda, əsərlərində canlandıran rəssamlarımız ikonoqrafik portretlər silsiləsi işləmişlər. Təsvir edilən obrazların daxili psixoloji aləmi əsas ideya kimi ön plana çıxır. Belə bir sənətkarlrımızdan biri də xalq rəssamı Altay Hacıyevdir (1931-2019).

Altay Hacıyev yaradıcılığına baxış. Altay Hacıyev 1931-ci ildə tanınmış rəssam Əmir Hacıyevin ailəsində dünyaya göz açmışdır. Əmir Hacıyev (1899-1972) XX əsr Azərbaycan təsviri sənətində xüsusi yer tutur. O, Qafqazın əhəmiyyətli mədəni və bədii mərkəzini təmsil edən Şuşada doğulub və böyüyüb. Azərbaycanın qədim torpağı, Qarabağ istedadları ilə zəngin olmuşdu. Rəssam etiraf edir ki, rəssamlıq sənətini öyrənməkdə atama borcluyam, lakin mənim əlimdən tutub sənət aləminə gətirən ailəvi dostluq münasibətlərimiz olan Böyükağa Mirzəzadə olmuşdur. Onun müəllimləri arasında Mikayıl Abdullayev, Tahir Salahovunda adını qeyd edə bilərik. Sənətkarın adı Azərbaycanda ilk dəfə 1958-ci ilin payızında, istedadlı gənc rəssamların birinci sərgisində çəkilmişdi. Kiyev rəssamlıq institutunun diplomantı A.Hacıyev doğma Bakıda akvarellə çəkdiyi qız portretini nümayiş etdirirdi. Əvvəlcə Bakıda rəssamlıq texnikumunda,sonra isə Kiyevdəki Rəssamlıq İnstitutunun qrafika fakültəsinə qəbul olur. Burada o, Ukraynanın məşhur qrafika ustası A.S.Paşşenkonun emalatxanasında məşğul olur, dəzgah qrafikasının müxtəlif növlərinin-litoqrafiyanın, linoqravüranın, ofortun sirlərinə yiyələnir, kitab qrafikasının əsaslarını öyrənir. Kiyevdə Altay Hacıyev Yakutoviç, Kaşşenko və Sergeydən də dərs alır. Eyni zamanda yerli kitab nəşriyyatlarının sifarişlərini yerinə yetirir. Onların arasında ən əhəmiyyətli kitab kimi 1957-ci ildə dərc edilmiş Şərəf Rəşidovun "Kəşmir təranəsini" qeyd etmək lazımdır. 1959-cu ildə Altay Hacıyev təhsilini başa çatdırır. Onun mövzusu "Azərbaycanda inqilabi hərəkat tarixindən" götürülmüş diplom işi-linoqravürlər seriyası yüksək qiymətləndirilir. Lakin bu beş vərəqdə artıq rəssamın həm dövrünə, həm də üsluba qarşı fərdi münasibəti irəli sürülür. Altay Hacıyev zəngin yaradıcılığa malik sənətkardır. O, yaradıcılığında əsasən portret, natürmort, peyzaj və s. janrlardan istifadə etmişdir. Rəssamın yaratdığı sənət nümunələri əsasən dövrünün qəhrəman, aşiq, şairə qadınları, Şuşa, yeni Bakı və s. olmuşdur. Sənətkar hər şeydən əvvəl, gördüklərinə yaradıcı münasibət bəsləyən, onları heyrət qaynağına çevirməyi bacaran rəssamdır. Əsərlərini səciyyələndirən milli ənənələr, kompozisiya bitkinliyi, məna-məzmun dərinliyi, inandırıcı stilizə və bədii şərtilik də bunu təsdiqləyir. Rəssam yaradıcılığında yağlı boya, quaş və akvarel texnikalarından geniş istifadə edir. Realistik üsluba üstünlük verən rəssam insan hisslərini ön plana çəkir, rənglər və musiqi vəhdət təşkil edir. Rəssam əsərlərində yaratdığı qadın obrazlarının həm zahiri görkəmini, həm də daxili aləmini tamaşaçıya daha aydın çatdırmaq üçün çox xırda detalları belə böyük ustalıqla vermişdir. Tamaşaçıların gözləri önündə canlanan bu qadın obrazları bədii kamilliyi və zəngin rəng koloritliyi ilə yanaşı, onların şəxsiyyətlərindəki mübarizə ruhunu, yaşayıb-yaratmaq əzmini, bir sözlə qadınların daxili duyğularını duymaq olur. "Mehriban Əliyeva", "Xurşud Banu Natəvan", "Tuti Bikə", "Aşıq Pəri", "Ağa bəyim Ağa", "Məhsəti Gəncəvi", "Sara Xatun" və bu kimi digər əsərlər Azərbaycan tarixində əvəzsiz rol oynayan qadınlara həsr olunmuşdur.

Əslən Şuşalı olan rəssamın yaradıcılığında Azərbaycanın dilbər guşələrindən biri, füsunkar təbiəti, min bir dərdə dərman bulaqları ilə insanları özünə valeh edən "Şuşa" şəhərinə həsr etdiyi qiymətli əsərlər toplusu mühüm yer tutur. Şuşanın ecazkar təbiətini, zümzüməsi ilə

insanları özünə heyran edən "Xarı Bülbül"ü, şəhərin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayan tarixi şəxsiyyətləri, Şuşada fəaliyyət göstərən, söz ustadlarını ətrafına toplayan "Məclisi-Üns"ü, Natəvanın Şuşaya səfər edən Aleksandr Düma ilə görüşü mövzularına müraciət edən rəssamın yaratdığı sənət inciləri zəngin rəng koloriti ilə yanaşı geniş və düşündürücü məzmunu ilə də sanki maarifləndici funksiya daşıyır. Altay Hacıyev Qarabağın gözəl xanımı, xan qızı Natəvana həsr etdiyi 60-dan çox rəngkarlıq və qrafika əsərlərində söz xiridarının müxtəlif ovqatlı, bir-birinə bənzəməyən onlarla obrazına rast gəlmək mümkündür. Rəssamın monumental sənət sahəsində yaratdığı əsərlər də özünəməxsus bədii-estetik dəyərləri ilə seçilirlər.

1982-ci ildə Altay Hacıyev Əməkdar rəssam, 2002 -ci ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülmüşdür. 1995 -ci ildə "Humay" mükafatı ilə təltif olunmuşdur. Altay Hacıyev 2003-cü ildən Prezident təqaüdünə layiq görülmüşdür.

Rəssamın bir neçə fərdi sərgisi təşkil olunmuşdur. Onun 1987-ci ildə qrafika əsərlərinin, 1991 -ci ildə "Natəvan-Şuşa", 2001-ci ildə isə "Xalqımızın ulduzları" adlı tematik, 2006-cı ildə 75, 2011-ci ildə 80, 2017-ci ildə 85 illik yubiley sərgiləri keçirilmişdir.

Altay Hacıyev yaradıcılığında tarixi obrazlar silsiləsi. Xalq rəssamı Altay Hacıyev yaradıcılığında tarixi şəxsiyyətlərimizə həsr edilən silsilə portretlər mühüm yer tutur. Həmin əsərlərə diqqət yetirsək, ikonoqrafik təhlilin əsas xüsusiyyətlərinin nəzərə çatdığını xüsusilə qeyd etməliyik. "Dədə Qorqud" obrazı təsviri sənətimizdə bir çox rəssamların-A.Azərelli, M.Abdullayev, T.Salahov yaradıcılığında fərqli yanaşmalarda rast gəlinir. Rəssamın ikonoqrafik obrazı ağsaqqal, türk xalqlarının müdrik şəxsiyyətinin ümumiləşmiş simasıdır. Kompozisiyanın ön hissəsində Dədə Qorqud düşüncəli, əlindəki qopuz aləti ilə igidləri döyüşə səsləyir. Qarlı dağlar, geyimdə istifadə edilən svastika türk xalqlarının məğrurluğunun simvolu kimi təsvir edilmişdir.

Azərbaycan təsviri sənətində ilk ikonoqrafik obaz kimi xarakterizə edilən "Atabəy Eldəniz"(ill 1) əsərində rəssam güclü, ifadəli, məğrur gücü ilə diqqəti cəlb edən türk hökmdarına diqqətləri cəlb edir. Eldənizin baş geyiminin üzərində aypara işarəsi onun hamiyyəti dövründə Azərbaycanın şimal və cənub torpaqlarının birləşməsi və Yaxın şərqin qüdrətli qüdrətli dövlətinə çevrilməsidir. Atəbəy Eldənizin sevimli xanımı "Mömine Xatun"a həsr edilən portretdə geyimi üzərindəki parlaq buta naxışları ritmik təkrarlanır.



**İLL 1.** Altay Hacıyev "Eldəniz Atəbəy" (kətan, yağlı boya, 100x68 sm)

Türkiyədə və Qərbi Avropada "II Teymur" adlandırılan, hətta Makedoniyalı İsgəndərlə müqayisə edilən, paytaxtı Təbriz olan qüdrətli Ağqoyunlu dövlətinin qurucusu "Uzun Həsən" obrazıda Altay Hacıyevin uğurlu işlərindəndir. Sərkərdənin baxışları tamaşaçıda qürur hissi yaradır. Arxa fonda miniatür üslubuna xas olan döyüş səhnəsi canlandırılmışdır."Sara Xatun" ikonoqrafik tematik kompozisiyası da rəssamın tarixi obrazlar silsiləsinə daxildir. Əsərin ön hissəsində görkəmli diplomat və dövlət xadimi olmuş Sara Xatunun diplomatik münasibətlər qurması, xarici qonaqların qəbul edilməsi səhnəsi həmin tarixi dövrü bir daha canlandırır.
Xalq rəssamı Altay Hacıyevin "Qubalı Fətəli xan", "Həcər", "Məhsəti Gəncəvi", "Tomris" və başqa tarixi şəxsiyyətlərimizə həsr etdiyi əsərlərdə tarixi həqiqətləri rəng vasitəsi tamaşaçılara çatdırır.
Qarabağ mövzusuna yaradıcılığında geniş yer ayıran sənətkar "Xurşudbanu Natəvan" obrazına tam fərqli şəkildə leytmotiv olaraq hər bir təsvir edilən səhnədə canlandırmışdır. Bu obraza sanki yeni bir nəfəs gətirir. "Şairə" əsərində rənglərin axıcılığı, naxışların parlaq şəkildə ifadəliliyi şairənin şeirlərinin misrasını xalça kimi bəzəyir. "Natəvana ithaf" (ill 2) əsərində Qarabağın təbiəti önündə xan qızının obrazı bu torpağın Azərbaycan xalqına məxsus olmasını bir daha təsdiq edir.



**İLL 2**. Altay Hacıyev "Natəvana ithaf" (kətan, yağlı boya, 100x80 sm)

Xurşudbanu Natəvana həsr olunan kətan üzərində yağlı boya ilə işlənən triptixdə Altay Hacıyevin yaradıcılığında mühüm yer tutur. Rəssam klassik üslubda işlədiyi bu əsərdə Azərbaycanın xanımının prototipini təsvir etməklə yanaşı, həmçinin bu obrazın timsalında milli geyimlərimizi, hətta geyimin üzərində istifadə edilmiş xırda ornamentləri belə çox dəqiqliklə tamaşaçıya çatdırmışdır. Qarabağ hakimi Mehdiqulu xanın qızı olan Natəvanı rəssam öz xəyal dünyasında, şeirlər aləmində təsvir edir. Əlində kitab təsvir olunmuş şairə sanki şeirlər dünyasına qərq olaraq, nə isə düşünür. Triptix formasında işlənən bu əsərdə şairənin sol tərəfində yanar şam və ətrafında dövr edən lirik pərvanələr, sağ tərəfdə isə gül üzərində əyləşmiş quş təsvir olunub. "Xan qızı" yanar şamın ətrafında dövr edərək özlərini oda vuran pərvanələri xəyallara qərq olaraq seyr edir və o, sanki bu zavallı pərvanələrə həsəd aparır.

Rəssam Natəvan obrazını tamaşaçıya çatdırmaq üçün onu yaşadığı mühitin, Şuşanın füsunkar təbiətinə xas olan "xarı bülbül" ilə vəhdət şəklində təsvir edərək Qarabağın simvollarını triptixdə bitkin fikir kimi çatdırmışdır. Yaradıcılığında lirik mövzulara daha çox müraciət edən şairə bu əsərdə də lirik,qəmli notlar üzərində əks olunur. (ill 3)



**İLL 3.** Altay Hacıyev "Xurşudbanu Natəvan. Triptix" (k.y.b, 150x100 sm)

"Şairə xəyallar dünyasında","Natəvan kitab ilə", "Düşüncələr", "Natəvan quşlarla söhbəti" əsərlərində rəssam Qarabağın xan qızının daxili aləmini müxtəlif tablolarda canlandırmışdır. Xan qızı Natəvanın məşhur fransız yazıçısı Aleksandr Düma ilə Qarabağ torpağında şahmat oynaması multikultural bədii həll baxımından önəmlidir. Rənglərin bir-birinə yaxın tonlarla işlənilməsi bütün əsər boyu diqqəti cəlb edir. Əsərin tarixi əhəmiyyəti bir daha Azərbaycan və Fransa xalqlarının dostluğunun neçə əsrə bağlı olduğunu sübut edir. (ill 4)
Qarabağın beşiyi sayılan Şuşada Natəvan və Qasım bəy Zakirin öz yazdığı şeirlərini təqdim etməsi sanki təbiətində bu poeziyadan ləzzət almasını rəssam öz fırçası ilə tamaşaçılara çatdırır. Natəvanın lirikası, Zakirin sərt yaradıcılığı Qarabağın şairlər, sənətkarlar yurdu olduğunu bir daha sübut edir.



**İLL 4.** "Natəvan və Aleksandr Düma"



**İLL 5**. "Natəvan və Qasım bəy zakir"

Azərbaycanın birinci xanımı, lider qadın məktəbi fenomeni anlayışının banisi Mehriban Əliyeva obrazı müasir dövr təsviri sənətimizin diqqət mərkəzində olan ikonoqrafik tipoloji bədii prinsiplərindən biridir. Xalq rəssamı Altay Hacıyevin incə, liderlik, səmimi baxışları ilə seçilən portreti fərqli xüsusiyyətləri ilə seçilir. İşıq, blik, rəng vasitəsilə ümumi bir ideya-xalqını sevən parlaq qadın fenomeni səciyyələndirilir.(ill 6)



**İLL 6.** Altay Hacıyev "Mehriban Əliyeva" (kətan, yağlı boya)

**Nəticə**

"Altay Hacıyev yaradıcılığında tarixi obrazlar" elmi məqaləsinin əsas nəticələri aşağıdakılardır:

- Altay Hacıyev yaradıcılığının formalaşmasına baxış edilmişdir
- Rəssamın yaradıcılığında mühüm yer tutan ikonoqrafik-tarixi obrazlar sənətşünaslıq kontekstində tədqiqata gətirilmişdir
- Qarabağın təbiəti, tarixiliyi, şəxsiyyətləri bir daha bu diyarın Azərbaycan xalqına məxsus olması xalq rəssamı Altay Hacıyevin əsərləri ilə sübutunu tapır.

**Ədəbiyyat siyası**

1.Ağayev E "Altay Hacıyev yaradıcılığında "Qarabağ" mövzusu", "Müstəqillik dövründə Azərbaycan təsviri sənətinin inkişafı (ənənə və müasirlik) " II Respublika elmi-nəzəri konfransın materialları,6 noyabr 2018,ADMİU, s164-167

2. Ağayev E. "Altay Hacıyev yaradıcılığında multikulturalizm ənənələri", "İdarəetmədə multikultural dəyərlər" mövzusunda IV Respublika elmi konfransının materiallar toplusu, 16 may, 2019, Turizm və menecment universiteti, s 87-92

3.Ağayev E. "Müasir Azərbaycan təsviri sənətinin inkişafında Altay Hacıyevin rolu", "Gənc Tədqiqatçıların IV beynəlxalq elmi konfransının materialları", Bakı mühəndislik universiteti 2020, s 1353-1356

4.Əliyev Z. Azərbaycanın Xalq Rəssamı Altay Hacıyev, Bakı, 2011, 143s.

5. Керимова С. Женские образы в творчестве А.Гаджиева в 60-70гг. XXв. Ekoloqiya Fəlsəfə Mədəniyyən , Əlmi məqalələr məcmuəsi , AMEA , Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, 40-cı buraxılış , Baki-2005, s. 177-181